# Vətənə sədaqətli xidmət nümunəsi

**Azərbaycan Hərb Tarixi Muzeyində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general- mayoru Həzi Əhəd oğlu Aslanovun anadan olmasının 116 illiyinə həsr olunmuş "Qəhrəmanlıq ənənələrini yaşadaq" adlı anım tədbiri keçirilib.**

**Əvvəlcə general Həzi Aslanovun, İkinci dünya müharibəsində həmçinin, birinci və ikinci Vətən müharibələrində müstəqilliyimiz, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda şəhid olmuş həmvətənlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.**



Tədbidə Azərbaycan Hərb Tarixi Muzeyinin şəxsi heyəti, AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun professoru, tarix elmləri doktoru Mais Əmrahov, Həzi Aslanov İrsinin araşdırmaçısı Azərbaycanın Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani və iki dəfə sovet ittifaqı qəhrəmanı general Həzi Aslanovun nəvəsi e.o.general mayor Həzi Aslanov və Həzi Aslanov adına Ordu İdeoloji İş və Mədəniyyət Mərkəzinin solistləri iştirak edib.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi e.o.polkovnik Elşad Pənahov çıxış edərək bildirib ki, XX əsrin ən dəhşətli və dağıdıcı muharibələrindən sayılan İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə və qələbənin qazanılmasında xalqımızın müstəsna xidmətləri olub. Böyük Vətən müharibəsi illərində yüzlərlə azərbaycanlı hərbçi öz sərkərdəlik istedadını nümayiş etdirib. Onlardan 12 nəfəri diviziya komandiri, 37 nəfəri briqada və alay komandiri vəzifələrinə yüksələrək, general və admiral hərbi rütbələrinə layiq görülüblər.

Tədbirin aparıcısı Həzi Aslanov İrsinin araşdırmaçısı polkovnik Abdulla Qurbani qəhrəman haqqında danışarkən qeyd edib ki, qanlı-qadalı müharibə cəbhələrində şöhrət qazanmış azərbaycanlı qəhrəmanlardan danışarkən gözlərimiz önündə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun surəti də canlanır.

A.Qurbani qəhrəmanın həyat yoluna nəzər salıb. Qeyd edib ki, Həzi Əhəd oğlu Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran rayonunun Gərmətük qəsəbəsində doğulub. İbtidai təhsilini şəhər 1 saylı orta məktəbində alıb. 13 yaşında atasını itirən Həzi kərpic zavodunda fəhlə işləyib, sonra Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilib. 1924-30-cu illərdə Bakı və Leninqrad hərbi məktəblərində oxuyub. 1929-cu ildə Leninqrad süvari məktəbinə daxil olub. İki illik təhsildən sonra Kotovski adına III Bessarabiya süvari diviziyasında taqım komandiri təyin olunub.

1939-cu ildə Sovet-Fin müharibəsi başlayan kimi könüllü olaraq Həzi Aslanov Kareliyaya yollanır və döyüşlərdə böyük rəşadət göstərir.O, 1941-ci il iyunun 23-nə keçən gecə alman zirehli qoşunları ilə qeyri-bərabər döyüşdə özünü bacarıqlı zabit kimi göstərir. Desant taboruna komandirlik edən Aslanovun döyüşçüləri faşistlərin ilk zərbələrini dəf edib, onlara qarşı igidliklə vuruşurdular.

Qəhrəmanımız 1941-ci ilin dekabrında Moskva ətrafında vuruşmalarda qəhrəmanlığına görə Qırmızı Ulduz ordeninə layiq görülür.

Stalinqrad ətrafında gedən döyüşlərdə onun başçılığı ilə 35-ci tank briqadası düşmənə ağır zərbələr endirir, düşmənin xeyli qüvvəsini və texnikasını sıradan çıxarırlar. Aslanovun döyüşçüləri Kotelnikovo yaxınlığında gedən döyüşlərdə böyük şücaət göstərir.



Stalinqrad cəbhəsində cinahlardan zərbə ustası kimi şöhrət qazanan böyük sərkərdəmiz özünü müasir hərb elminə yiyələnən mahir bir komandir kimi göstərib. Bununla bağlı o yazırdı: "Üzbəüz həmlə nə qədər cəlbedici görünsə də, mən həmişə üstünlüyü düşmənin cinahlarına zərbə endirməyə verirəm. Düşmənin cinahlarını axtarmaq, ona ən zəif yerlərindən zərbə vurmaq asan deyildir, bunun üçün hər bir komandirdən böyük əmək, zirəklik və mətinlik tələb olunur".

Polkovnik çıxışının sonunda bildirib ki, Azərbaycan xalqı, dövlətimiz ağır müharibə cəbhələrində şanlı döyüş yolu keçmiş oğullarını, sərkərdələrini unutmur, onların adları daim əbədiləşdirilir. Tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov da heç vaxt yaddaşlardan silinməyəcək, tarix bu adı Vətənə sədaqətli xidmət nümunəsi kimi əbədi yaşadacaqdır.

Daha sonra AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnoloğiya İnstitutunun professoru, tarix elmləri doktoru Mayis Əmrahov "Azərbaycanın adını tarixin silinməz səhifələrinə əbədi həkk etmiş qəhrəman sərkərdəmiz" adlı çıxışında qeyd edib ki, Böyük Vətən müharibəsi cəbhələrində Azərbaycanın igid oğul və qızları elə ilk gündən silaha sarılıb böyük hünər və rəşadət göstərərək, adlarını şanlı hərb tariximizin səhifələrinə qızıl hərflərlə həkk ediblər.



Xalqımızın ümummilli lideri Heydər Əliyev böyük qürur və fərəh hissi ilə deyirdi: "Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə, general, həm də vətənpərvər bir insan, Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır".

Qeyd olunub ki, Azərbaycan xalqının şanlı oğlu Həzi Aslanov Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi şəxsi igidlik və qoçaqlığına görə 3 Qırmızı Bayraq ordeni, 2-ci dərəcəli Suvorov ordeni, Aleksandr Nevski ordeni, 1-ci dərəcəli Vətən müharibəsi ordeni, 2 Qırmızı Ulduz ordeni kavaleri və medallarla təltif olunub. 1944-cü ildə general-mayor Həzi Aslanov Belorusiya cəbhəsindəki şücaətinə görə ikinci dəfə yüksək adı təqdim edilsə də, SSRİ hərbi rəhbərliyində təmsil olunan erməni generalı İ.Baqramyan buna maneəçilik törədib. Ölümündən 47 il sonra, 1991-ci ildə H.Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı və saysız medallarla təltif olunub.

Mayis Əmrahov bildirib ki, Həzi Aslanovun həyatı Azərbaycan xalqının şərəfli tarixi yaddaşının ən parlaq səhifələrindən biridir. O, təkcə bir hərbçi yox, həm də milli qürur, Vətənə sevgi və əzm simvoludur. Onun adı bu gün də Azərbaycan Ordusunda hörmətlə anılır, qəhrəmanlığı gələcək nəsillərə örnək göstərilir.

Tədbirdə fəxri qonaq kimi iştirak edən Həzi Aslanovun nəvəsi e.o.general mayor Həzi Aslanov babası haqqında fəxr hissi ilə çıxış edərək bildirib ki, Həzi Aslanovun həyatı və fəaliyyəti sübut edir ki, yüksək peşəkarlıq, vətən sevgisi və fədakarlıq insanı ölümsüz qəhrəmana çevirə bilər. Onun göstərdiyi qəhrəmanlıq bu gün də hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Həzi Aslanovun adı daim yaddaşlarda qalacaq, qəhrəmanlığı gələcək nəsillərə ötürüləcəkdir.

Qonaq tədbirin təşkili üçün Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi e.o. polkovnik Elşad Pənahova və şəxsi heyətə özü, ailəsi adından minnətdarlığını bildirib. Həzi Aslanovun həyat və döyüş yolundan bəhs edən şəxsi imzalı kitab, qəhrəmanımız haqqında çəkilmiş bədii və sənədli filmlər və həyat yolunu əks etdirən disklər toplusunu Muzeyə xatirə olaraq hədiyyə edib.

Məruzələrdən sonra tədbir iştirakçılarının iştirakı ilə mövzu ətrafında müzakirələr aparılıb.

Daha sonra Həzi Aslanovun həyatı və hərbi fəaliyyətindən bəhs edən qısa metrajlı sənədli filmə də nümayiş etdirilib. Bədii hissədə isə Həzi Aslanov adına Ordu İdeoloji İş və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında hərbi-vətənpərvərlik mahnıları dinlənilib.

*Gülşəndə MAMEDOVA*
*Azərbaycan Hərb Tarixinin Muzeyinin tədqiqatçı elmi-işçisi*